Monumental heykəllərlə bərabər Cəlal Qaryağdı bədii irsinin mühüm hissəsini muzeyləri, sərgi salonlarını bəzəyən dəzgah heykəlləri təşkil edir. Dəzgah heykəltəraşlığının müxtəlif janrlarında yaradılmış və sənətsevərlərin rəğbətini qazanmış heykəl və barelyeflər sənətkarın fitri istedada malik olmasını və yüksək peşəkarlıq səviyyəsinə yiyələnməsini sübut edir.

Heykəltəraşın özünəməxsus yaradıcılıq xüsusiyyətləri sırasında sənətkarın çılğın yapma temperamentini, onun yaratdığı plastik formalarda isə monumental səslənən lakonizmi, bəzən kəskin dinamikliyi və incə plastik çalar keçidlərinin vahid heykəltəraşlıq formasında birləşməsini qeyd etmək lazımdır. Cəlal Qaryağdının yaratdığı obrazlar plastik formaların səlis işlənməsi, həcmlərin mütənasibliyi, kompozisiyanın aydınlığı və sadəliyi ilə seçilirlər. Onun yaratdığı insan obrazları güclü daxili xasiyyətə, bəzən isə incə emosionallığa və zəngin mənəvi aləmə malik obrazlar kimi təcəssüm olunmuşdur.

Cəlal Qaryağdının müasir Azərbaycan incəsənəti tarixində tutduğu yer və bədii xəzinəmizə verdiyi töhfələr xalq tərəfindən yüksək qiymətləndirilmişdir. Rəssam Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, xalq rəssamı fəxri adlarına layiq görülmüş və müasir təsviri incəsənətimizin korifeyi kimi incəsənət tariximizdə və xalqın yaddaşında əbədi qalmışdır.

Cəlal Məhərrəm oğlu Qaryağdı Azərbaycanın qədim musiqi paytaxtı sayılan Şuşa şəhərində 1914-cü ildə tacir ailəsində dünyaya gəlmişdir. İncəsənətə, yaradıcılığa önəm və dəyərin verildiyi mühitdə böyüyən balaca Cəlalın hələ uşaqlıq illərindən təsviri sənətə olan marağı və fitri istedadı məktəb müəllimlərinin diqqətini cəlb etmişdir. Öz rəsmləri ilə uşaq rəsm müsabiqələrində və sərgilərdə iştirak edən gənc rəssam dəfələrlə müxtəlif mükafatlarla təltif olunmuş, 1928-ci ildə yerli komsomol təşkilatının dəstəyi ilə peşəkar rəssamlıq təhsili almaq üçün Bakıya göndərilmişdir.

Azərbaycan İncəsənət Texnikumuna rəngkarlıq ixtisası üzrə qəbul olunan Cəlal Qaryağdı rəngkarlıqla bərabər heykəltəraşlığa da daima meyl göstərirdi. Günlərini heykəltəraşlıq emalatxanasında keçirən gənc rəssam yaratdığı heykəl kompozisiyalarında insan fiqurunu, onun anatomiyasını, hərəkət xüsusiyyətlərini yüksək bacarıq və realizmlə əks etdirilməsinə nail olurdu. Bu səbəbdən Cəlala təhsilini bitirdiyi texnikumda rəsm fənnini tədris etmək təklif olunur.

Pedaqoji fəaliyyətlə yanaşı, rəssam həmin illərdə Bakıda nəşr olunan bir sıra jurnallar üçün beynəlxalq sosial-siyasi həyatın aktual hadisələrini əks etdirən rəsmlər çəkirdi. Bu rəsmlər onun təsvir etdiyi obrazlarda ən səciyyəvi portret cizgilərini, hərəkətləri və jestləri seçərək ümumi obrazın yaradılmasında mühüm vasitəyə çevirə bilmək bacarığını nümayiş etdirirdi.

"Şair Molla Pənah Vaqif" Barelyef
Gips, 1938-1939
"Poet Molla Panah Vagif" Bas-relief
Gypsum, 1938-1939

Lakin peşəkar heykəltəraş olmaq arzusu gənc Cəlalı təhsilini yeni istiqamətdə davam etdirməyə vadar edir və o, ali təhsil almaq məqsədi ilə Gürcüstan Rəssamlıq Akademiyasına yollanır. 1934-cü ildə həmin akademiyaya daxil olan Cəlal məşhur portretçi-heykəltəraş Yakob Nikoladzenin emalatxanasında heykəltəraşlıq sənətinin sirlərinə yiyələnməyə başlayır. Nikoladzenin təlim sistemi naturanın ətraflı və diqqətlə öyrənilməsini nəzərdə tuturdu. Məhz bu təlimin nəticəsi olaraq gənc Cəlal Qaryağdı canlı naturanı rəssam baxışı ilə müşahidə etmək, onun plastik xüsusiyyətlərini dəqiqliklə əks etdirmək qabiliyyətini yüksək peşəkarlıqla mənimsəyir. İllərin keçməsinə baxmayaraq, Cəlal Qaryağdı öz sənətinə müəlliminin böyük təsir göstərdiyini dəfələrlə etiraf etmişdir.

Təhsilinin sonunda, yəni 1937-ci ildə böyük rus şairi A.S. Puşkinin yubiley tədbirləri çərçivəsində keçirilən sərgidə Cəlal Qaryağdı özünün ilk yaradıcılıq əsərini – A.S. Puşkinin barelyefini nümayiş etdirir. Şairin həmdövr portretlərinə əsasən yaradılmış barelyefdə lirik əhval-ruhiyyə və incə plastik

"Şair Mirzə Ələkbər Sabirin portreti"
Bazalt, 1963
"Portrait of Poet Mirza Alakbar Sabir"
Basalt , 1963

keçidlər gənc heykəltəraşın formalaşmaqda olan yaradıcılıq dəst-xəttini açıq-aşkar nümayiş etdirirdi.

1937-ci ildə Gürcüstan Rəssamlıq Akademiyasını bitirən Cəlal Qaryağdı Azərbaycana artıq peşəkar heykəltəraş kimi qayıdır və respublikanın bədii həyatında fəal iştirak etməyə başlayır.

Yaradıcılığının bu erkən mərhələsində heykəltəraşlığın barelyef növünə daha çox maraq göstərən Cəlal Qaryağdı görkəmli gürcü şairi Şota Rustavelinin barelyef-portretini yaradır. Artıq bu barelyefdə heykəltəraş incə plastik formalar qurmaq bacarığı ilə bərabər özünəməxsus yapma texnikasının və incə plastik səthlərin mahir ifaçısı kimi çıxış edir.

Sənətkarın həmin dövrdəki yaradıcılığının digər istiqamətini həcmli dəzgah heykəltəraşlığı sahəsində axtarışlar təşkil edir. Yaradıcılıq prosesində portret və tamfiqurlu heykəllərdə bəsit xarici bənzərliyi əks etdirmək mərhələsindən keçərək Qaryağdı kiçik formada tipikliyi, obrazlılığı və maraqlı rakursu qabartmağa üstünlük verməyə başlayır. Sənətkar yaradıcılığının həmin illərdəki inkişaf mərhələsini yaratdığı "Gənc Stalin" heykəli əks etdirir. Heykəltəraş gipsdən işlənmiş Stalin fiqurunu xəyallara qərq olmuş, XX əsrin əvvəllərinə xas seminariya tələbəsi geyimində olan gənc obrazında təsvir edir. Heykəltəraşın yaratdığı obraz siyasi fəaliyyətinə yenicə qərar vermiş Stalinin gələcəyə inamla baxdığını tərənnüm edirdi.

Həmin dövrdə inkişafda olan Azərbaycan heykəltəraşlığının məzmun dairəsi əksər hallarda tarixi şəxsiyyətlərin, dövlət və inqilab xadimlərinin obrazları ilə məhdudlaşırdı. Heykəltəraşlıq sənəti şəhər mühiti ilə əlaqəli olduğundan ideoloji orqanların daimi nəzarəti altında idi. Məlum "Monumental təbliğat planı" heykəltəraşlıq sənətinin məzmun və formasını istiqamətləndirərək sənətkarları inqilab fədailərinin obrazlarını yaratmağa sövq edirdi.

Məhz bu ictimai və ideoloji amilin təsiri nəticəsində gənc sənətkar Cəlal Qaryağdı həmin illərdə Bakı inqilabçılarının bir neçə büst-heykəlini yaradır.

"Köhnə neft mədənində"
Gips, 1945
"At the Old Oilfields"
Gypsum, 1945

Gipsdən hazırlanan belə büst-heykəllər ictimai yerlərdə, məktəb və dövlət idarələrinin konfrans zallarında, "Lenin guşələri"ndə qoyularaq, ictimai təbliğat funksiyasını yerinə yetirirdi.

Qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycanda milli heykəltəraş kadrlar demək olar ki, yox dərəcəsində idi. Onların əksəriyyəti Rusiyadan dəvət olunduğundan yerli mütəxəssislərə böyük tələbat var idi.

30-cu illərin sonunda "Monumental təbliğat" planına əsasən, rəssam və heykəltəraşlar qabaqcıl əmək qəhrəmanlarının, inqilab xadimlərinin obrazlarını yaratmalı, cəmiyyətin həyatını əks etdirməli, onun qabaqcıl nümayəndələrini təsviri rəmzlərə çevirməli idilər. Bu prosesdə Cəlal Qaryağdı da yaxından iştirak edir, çoxlu sifarişlər yerinə yetirirdi.

Heykəltəraşın ilk müstəqil əsərləri də məhz bu illərdə təşkil olunmuş "Azərbaycanın inqilab cəmiyyətləri tarixi muzeyi" üçün yaratdığı azərbaycanlı inqilabçıların heykəl-portretləri olmuşdur. Heykəltəraşın sənət sahəsindəki bu ilk kövrək addımlarının onun gələcəkdə məhz portret ustası kimi formalaşmasında böyük əhəmiyyəti oldu. Bir qədər romantik ruhda yaradılan bu portretlərdə gənc heykəltəraş cizgilərinin realistik əksinə üstünlük verir, portret-büstlərdə plastikanın emosionallığına nail olurdu.

Yaradıcılığının bu erkən mərhələsində Cəlal Qaryağdı heykəltəraşlığın digər növlərində də öz gücünü sınamağa başlayır. Belə növlərdən biri relyef idi. 1938-ci ildə Moskvada keçirilən ənənəvi "Kənd təsərrüfatı nailiyyətləri sərgisi"ndə Azərbaycan pavilyonunun tərtibatında iştirak edən heykəltəraş "Heyvandarlıq" və "Bağçılıq" mövzusunda iri, çoxfiqurlu barelyeflər yaradır. Bu barelyeflərdə o, vahid mövzu ətrafında bir neçə süjeti birləşdirən mürəkkəb kompozisiyada rəmzi obrazın yaradılmasına nail olur. Artıq bu barelyeflərdə heykəltəraşın gələcək dəst-xətti görünməyə başlayır. Bu dəst-xəttin ən səciyyəvi xüsusiyyətini heykəltəraşlıq formalarının incə keçidləri təşkil edirdi.

Heykəltaraşlıq kombinatında
1952
At the Sculptures Center
1952

"Maestro Niyazinin portreti"
Tonlaşdırılmış gips, 1960
"Portrait of Maestro Niyazi"
Toned gypsum, 1960

Heykəltəraşlığın müxtəlif növlərinə olan maraq Cəlal Qaryağdını hələ yaradıcılığının erkən mərhələsində monumental heykəl abidəsi üzərində çalışmağa sövq edir. Heykəltəraşın yaratdığı ilk monumental heykəl də məhz 1940-cı ildə Samur-Dəvəçi kanalının memarlıq tərtibatının əsas abidəsi olan "Kəndli" monumenti olmuşdur. Dörd metr hündürlüyündə olan fiqur Azərbaycan kəndlisinin ictimai maraqlarla yaşayan, fəal vətəndaş mövqeyi olan yeni obrazını özündə əks etdirirdi. Monumental heykəl yaratmaq təcrübəsi olmayan Cəlal Qaryağdının bu abidəsində bir sıra qüsurlar rəsmi tənqidin diqqətini çəkdi. Belə ki, fiqurun hərəkəti inandırıcı olmamaqla bərabər, onun ayrı-arı hissələri üzvi vəhdət halına gətirilməmişdi, digər tərəfdən, fiqurun ümumi silueti də kifayət qədər "oxunaqlı" sayıla bilməzdi.

İlk monumental heykəlində qarşılaşdığı yaradıcılıq və texnoloji problem və qüsurları heykəltəraş növbəti heykəl abidəsində aradan qaldırmağı bacarmış və bu dəfə artıq bitkin monumental obraz yarada bilmişdir. Söhbət yenicə tikilmiş Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin lociyası üçün XVIII əsrin klassik şairi Molla Pənah Vaqifin heykəlindən gedir. Ədəbiyyat

ir-39858

"Bəstəkar Fikrət Əmirovun portreti"
Mərmər, 1960
"Portrait of Composer Fikret Amirov"
Marble, 1960

muzeyinin tağlı lociyalarının birində ucaldılması nəzərdə tutulmuş ədəbiyyat korifeylərinin heykəlləri vahid ansamblda birləşərək Azərbaycan ədəbiyyatının panteonu obrazını özündə əks etdirməli idi. Nəzərdə tutulmuş altı heykəldən biri olan Molla Pənah Vaqif abidəsi Cəlal Qaryağdının traktovkasında böyük şair, alim, siyasi, ictimai və dövlət xadimi kimi təqdim olunmuşdur.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"SSRİ Xalq artisti Bülbülün portreti"
Gips, 1953
"Portrait of Bulbul, People's Artist of USSR"
Gypsum, 1953

Cəlal Qaryağdı tələbə dostları ilə
Tiflis Akademiyası, 1935-1936
Jalal Garyaghdi with his student fellows
Tiflis Academy, 1935-1936

Heykəlin və portret obrazın inandırıcı olması üçün müəllif şairin əsərlərini dərindən öyrənmiş, onun xarici görkəmini təsvir edən yazılı mənbələrlə tanış olmuş və nəticədə görkəmli şairin ümumiləşdirilmiş və xalq tərəfindən qəbul olunmuş obrazını təsvir etmişdir.

Monumental heykəlin yaradılmasından öncə müəllif Molla Pənahın portret obrazı üzərində axtarışlar aparmışdır. Bu axtarışların ilk uğuru kimi 1938-ci ildə yaratdığı "Vaqif" barelyefini göstərmək olar. Bu barelyefdə tapılmış portret obrazı Ədəbiyyat muzeyinin lociyasında ucaldılacaq heykəlin portret xüsusiyyətlərini müəyyən etmişdir.

Nizami Gəncəvinin yubileyi ərəfəsində dahi şairin monumental heykəlinin yaradılması üzrə müsabiqədə iştirak edən Cəlal Qaryağdının ucaltdığı Nizami Gəncəvi abidəsinin layihəsi də münsiflər heyətinin diqqətini cəlb etmişdi. Bildiyimiz kimi, bu müsabiqənin qalibi Fuad Əbdürrəhmanovun layihəsi əsasında Böyük Vətən müharibəsindən sonra muzeyin qarşısındakı parkda heykəl ucaldılmışdır.

"General Həzi Aslanovun portreti"
Tunc, 1948
"Portrait of General Hazi Aslanov"
Bronze, 1948

formatında işlənmiş və sifət cizgilərinin özünəməxsusluğuna görə portret xüsusiyyətlərinə malik olan, lakin məzmun baxımından bitkin kompozisiya kimi səslənən heykəl kəndlinin ümumiləşdirilmiş obrazını əks etdirir. Heykəl sadə bir çobana onun mənliyinə, səmimiliyinə və əməksevərliyinə görə tamaşaçıda maraq, eyni zamanda dərin hörmət və ehtiram hissi oyadır.

1950-ci ildə Cəlal Qaryağdı Mədəniyyət Nazirliyinin Hökumət evi kompleksində V.İ. Leninin monumental heykəlinin ucaldılmasına həsr olunmuş müsabiqədə qalib gələrək heykəlin yaradılması üzərində gərgin işə başlayır. Beş il davam edən yaradıcı əmək nəticəsində Azərbaycanda o dövr üçün ən böyük monumental heykəl yaradılır. Böyük Oktyabr İnqilabı rəhbərinin 11 metr hündürlüyündə olan heykəli 1955-ci ildə Hökumət evinin

"General Həzi Aslanovun portreti"
Mərmər, 1955
"Portrait of General Hazi Aslanov"
Marble, 1955

Emalatxanın həyətində,
"Ana" abidəsinin eskizi önündə
1986
In the Studio's yard, next to
"Mother" Sculpture's Sketch
1986

monumental heykəlin yaradılması baş tutmamışdı. Onilliklər keçdikdən sonra heykəltəraşın layihəsi əsasında Cəfər Cabbarlının heykəli digər görkəmli heykəltəraş – Mirəli Mirqasımov tərəfindən ucaldılmışdır.

Heykəltəraşın bu illərdə yaratdığı digər bir abidə – xalq yazıçısı Səməd Vurğunun Qazaxdakı ev-muzeyinin qarşısında ucaldılmış heykəli daha uğurlu olaraq 1966-cı ildə, şairin ölümündən on il keçdikdən sonra təntənəli şəkildə açılır. Təbii ölçüdən iki dəfə böyük olan və qranit daşdan yonulmuş heykəldə şair postament üzərində oturmuş vəziyyətdə təsvir olunub.

Müasir Azərbaycan monumental heykəltəraşlığında təkrarolunmaz yeri olan abidələrdən biri də Azərbaycanın dövlət və mədəniyyət xadimi Nəriman Nərimanovun heykəlidir. 1972-ci ildə Bakı şəhərinin ən uca nöqtələrindən birində Cəlal Qaryağdının ucaltdığı bu heykəldə dövlət xadimi Azərbaycanın dövlət qurucusu obrazında təsvir olunmuşdur. Bakının yüksək nöqtəsindən şəhərin panoramına baxan N. Nərimanovun fiquru amfiteatr şəklində yerləşmiş şəhər mühitinin dominant abidəsi kimi qavranılır.

"Sovet İttifaqı Qəhrəmanı
Adil Quliyevin portreti"
Gips, 1944-1945
"Portrait of Adil Guliyev, Hero of
the Soviet Union"
Gypsum, 1944-1945

Bu dövrdə heykəltəraş Fəxri Xiyabanda Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin qəbirüstü heykəllərini də ucaldır. Bu heykəllərdə müəllif xalqın tanınmış simalarının portretlərini memorial heykəltəraşlığın xüsusiyyətlərinə riayət etməklə yaradır. Belə qəbirüstü abidələrdən biri kimi 1975-ci ildə görkəmli bəstəkar və maarifçi Soltan Hacıbəylinin qəbirüstü heykəl kompozisiyasını göstərmək olar.

Cəlal Qaryağdının memorial heykəltəraşlıq sahəsində son əsəri 1979-cu ildə Bərdə şəhərində ucaldılan Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə həsr olunmuş memorial ansamblın mərkəzi "Ana" abidəsidir. Heykəltəraşın yaratdığı və öz konkretliyi ilə ideallaşdırmadan uzaq olan "Ana" fiquru müharibədə Vətən uğrunda həlak olmuş bütün oğulların doğma anası obrazını özündə canlandırır.

Cəlal Qaryağdının son monumental əsəri görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının 1999-cu ildə Xızı rayonunda ucaldılmış heykəli olmuşdur. Heykəltəraş ayaqüstə durmuş və sanki tamaşaçılar qarşısında öz pyesindən bir parça oxuyan Cəfər Cabbarlının səmimiliyi ilə seçilən artistik pozasını və hərəkətini real səpkidə əks etdirir. Teatr sənətinə vurğunluğu ilə seçilən dramaturqun ölməz obrazı bu heykəldə özünəməxsus teatrallığı və romantikliyi ilə bir daha canlandırılır.

Cəfər Cabbarlının monumental heykəli görkəmli heykəltəraş Cəlal Qaryağdının sonuncu irihəcmli əsəri olmuşdur. 2001-ci ildə dünyasını dəyişmiş heykəltəraşın zəngin bədii irsi müasir Azərbaycan incəsənəti xəzinəsinin ayrılmaz hissəsi olaraq heykəltəraşlıq sənətinin ən yüksək zirvələrindən biri kimi qalmaqdadır.

Müasir Azərbaycanın heykəltəraşlıq sənətinin korifeylərindən biri olan Cəlal Məhərrəm oğlu Qaryağdı fərdi dəst-xəttə, ifa tərzinə malik romantik ruhlu, ehtiraslı və cəsarətli plastik formalara meylli heykəltəraş idi. Milli xarakteri qəlbən duyaraq aşkarlayan sənətkar yaratdığı heykəl-abidələrdə təcəssümünü tapan və xalqın tarixində əhəmiyyətli yer tutan görkəmli simaları nəsillərə tanıdırdı. Onun plastik sənətimizin bədii ənənələrini özündə əks etdirən heykəltəraşlıq əsərləri Azərbaycan incəsənəti tarixinə dəyərli töhfə kimi daxil olmuşdur.

Telman İbrahimov, Bakı, 2013



"Kişi portreti"
1946-1947
"Man's Portrait"
1946-1947

"Rəssam Bəhruz Kəngərlinin portreti"
Tonlaşdırılmış gips, 1947
"Portrait of Artist Bahruz Kengerli"
Toned gypsum, 1947

the support of local komsomol organization. Jalal Garyaghdi entered the painting specialty at the Azerbaijan State College of Arts, always displayed an interest to sculpture alongside painting. Spending his time in the sculpture studio, the young sculptor achieved to reflect human figure and its anatomy, motion peculiarities very skilfully and with realism in the monument compositions created by him. For this reason Jalal was proposed to teach the painting at the college of art.

Alongside pedagogical activity, the artist used to create paintings, reflecting actual developments of the international social-political, life for some journals. These paintings demonstrate his skill to turn the most specific portrait features, motions and gestures into important tools in creating general character.

But the wish to become professional sculptor obliged young Jalal to continue his education in a new direction and he left for Tbilisi State

"Müğənni Rəşid Behbudovun portreti"
Gips, 1949
"Portrait of Singer Rashid Behbudov"
Gypsum, 1949

Academy of Arts in Georgia. In the Academy, Jalal was admitted in the class of a talented sculptor and pedagogue professor Iakob Nikoladze, in 1934 and started to learn the secrets of the sculpture.

Nikoladze's education system covered the detailed and attentive study of the nature. As a result of exactly this teaching, young Jalal Garyaghdi mastered high professionally the skill to observe the living nature via painter eyes and to reflect its plastic peculiarities precisely. Despite passing years Jalal Garyaghdi repeatedly admitted teacher's huge influence on his creativity.

At the end of study years in 1937, Jalal Garyaghdi demonstrated his first creativity work, the bas-relief in the exhibition dedicated to great

Cəlal Qaryağdı (1914 - 2001) Qısa tərcümeyi-hal

Bakı Rəssamlıq Texnikumunda ilk təhsil illəri. Aşağı cərgədə sağdan birinci Cəlal Qaryağdı
1928
First years at Baku Art College. From right the first one on the first row is Jalal Garyaghdi
1928

1914-cü il 15 iyul - Cəlal Qaryağdı Şuşada anadan olmuşdur

1928-1932-ci illərdə - Bakı Rəssamlıq texnikumunda oxumuşdur

1934-1937-ci illərdə - Tiflis Rəssamlıq Akademiyasında təhsil almışdır

1948-ci ildə - Yaratdığı "Çoban" kompozisiyası ilə Ümumittifaq təsviri sənət sərgisində iştirak etmişdir

1950-ci ildə - Cəlal Qaryağdı Azərbaycan Mədəniyyət Nazirliyinin Leninin heykəli üçün elan etdiyi müsabiqənin qalibi olmuş və məhz onun yaratdığı 11 metr hündürlükdə olan heykəl Hökumət Evinin qarşısında ucaldılmışdır

1951-ci ildə - "Həzi Aslanovun portreti" əsəri ilə Ümumittifaq sərgidə iştirak etmişdir

1954-cü ildə - Azərbaycan Əməkdar İncəsənət xadimi adına layiq görülmüşdür

1957-ci ildə - Ümumittifaq Rəssamlarının birinci qurultayında C. Qaryağdı Azərbaycan Rəssamlarının nümayəndəsi olmuşdur. İki dəfə Bakı şəhər Sovetinə deputat seçilmişdir

1960-cı ildə - Azərbaycanın Xalq rəssamı adına layiq görülmüşdür

2001-ci ldə - Bakıda vəfat etmişdir



Emalatxanada (Kirxa)
Vaqifin heykəlini işləyərkən
1937
In the Studio (German Church)
Working on Vagif's sculpture
1937

I-398858

CƏLAL QARYAĞDI

1914 - 2001

heykaltəraşlıq qrafika

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

SƏRVƏT
Bakı, 2013



CƏLAL QARYAĞDI